# Q Ə R A R

**<u>İş № 1(103)-573</u>**

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası;
Hakimlər Sahibxan Arzuman oğlu Mirzəyevin sədrliyilə,
Abid Kamil oğlu Abdinbəyov və Qail Fazil oğlu Məmmədovdan ibarət tərkibdə,
Məhkəmə iclas katibi-Yusifov Rövşən Şahin oğlu,
Dövlət ittihamçısı-Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru, baş ədliyyə müşaviri Süleymanov Səlim Məhəmməd oğlu,
Müdafiəçi-fərdi fəaliyyət göstərən vəkil Məmmədov Pərvin Aftandil oğlu,
Zərərçəkmiş şəxs-Cəfərova Firuzə Siyasət qızı,
Nümayəndə-Bakı şəhəri 13-saylı Hüquq Məsləhətxanasının vəkili Şükürov Elxan Şükür oğlunun iştirakı ilə

**22 iyul 2010-cu il tarixdə** **Bakı şəhərində**

14.02.1972-ci ildə Quba rayonunun Cimi kəndində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, evli, ali təhsilli, əvvəllər məhkum olunmamış, Azərbaycan Respublikası Gözdən Əlillər Cəmiyyətinin sədri vəzifəsində işləyən, Bakı şəhəri, F.Yusifov küçəsi, ev 45a, mənzil 80 ünvanında yaşayan, barəsində "başqa yerə getməmək haqqında iltizam" qətimkan tədbiri seçilmiş Səmyar Abdulla oğlu Abdullayev haqqındakı-

Bakı şəhəri, Nərimanov Rayon Məhkəməsinin 25 may 2010-cu il tarixli hökmündən məhkum S.Abdullayev tərəfindən verilmiş apellyasiya şikayətinə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq

## M Ü Ə Y Y Ə N E T D İ:

Bakı şəhəri, Nərimanov Rayon Məhkəməsinin 25 may 2010-cu il tarixli hökmü ilə(sədrlik edən T.O.Hüseynov) Abdullayev Səmyar Abdulla oğlu Azərbaycan Respublikası CM-nin 306.2-ci maddəsi ilə təqsirli bilinib, 1.000(min) manat cərimə cəzasına məhkum edilmişdir.

Məhkəmənin hökmünə əsasən, Abdullayev Səmyar Abdulla oğlu təqsirli bilinib məhkum edilmişdir ondan ötrü ki, o, qulluq mənafelərini yanlış başa düşərək, iddiaçı Cəfərova Firuzə Siyasət qızının cavabdeh Azərbaycan Respublikası Gözdən Əlillər Cəmiyyətinə qarşı vəzifəli şəxsin hərəkətlərindən şikayətinə dair iddiasının təmin edilməsinə və həmin cəmiyyət tərəfindən F.S.Cəfərovanın mənzillə təmin ediləcək şəxslər sırasından çıxarılmasına dair qərarının ləğv edilməsinə, sonuncunun tikintisi başa çatdırılmış 90 mənzillik binadan məzillə təmin edilməsi vəzifəsinin Gözdən Əlillər Cəmiyyətinin üzərinə qoyulması barədə qətnaməni müəyyən olunmuş müddətdə qərəzli olaraq icra etməmiş, qətnamənin icrası ilə bağlı məhkəmə icraçısının qanuni tələbinin yerinə yetirməməsinə görə 19.06.2009-cu il tarixdə həmin məhkəmə tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsi ilə təqsirli bilinərək xəbərdarlıq edilməsinə və

qətnaməni icra etmək üçün ona əlavə vaxt verilməsinə baxmayaraq, hərəkətlərindən nəticə çıxarmamış, şəxsi maraqları naminə qanunsuz əməllərini davam etdirərək ədalət mühakiməsinin nüfuzuna xələl gətirmişdir.

Həmin hökmdən məhkum S.Abdullayev apellyasiya şikayəti verib onun ləğv edilərək. barəsində bəraət hökmünün çıxarılmasını, bu mümkün olmadıqda isə Azərbaycan Respublikası CM-nin 74-cü maddəsinə əsasən şəraitin dəyişməsi ilə əlaqədar onun cinayət məsuliyyətdən azad olunması barədə qərar çıxarılmasını xahiş etmişdir.

Məhkum apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, məhkəmə gəldiyi nəticələr üzrə mühüm əhəmiyyət kəsb edən bütün faktiki halları araşdırmamış, iş üçün əhəmiyyətli hesab olunan hallar sübuta yetirilməmiş, tətbiq edilməli olan cinayət qanununun norması tətbiq edilməmişdir. Məhkum göstərmişdir ki, mövcud vəziyyətdə qətnamənin icrasının mümkün olmaması barədə onun və məhkəmə icraçısının məhkəmədə verdiyi ifadələri nəzərə alınmamış, məhkəmə onun ifadəsini əsassız olaraq özünü müdafiə kimi qiymətləndirmişdir. Bundan əlavə, məhkum şikayətində göstərmişdir ki, o, iş üzrə zərərçəkmiş F.Cəfərovanın faktiki olaraq yaşayış və əlavə iş yerinin olması barədə məlumatları əldə etmiş, bununla bağlı məhkəmənin qətnaməsində yeni açılmış hallarla bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət etmişdir. Ona görə də hömün ləğv edilərək ona bəraət verilməsini, yaxud da Azərbaycan Respublikası CM-nin 74-cü maddəsinə əsasən şəraitin dəyişməsi ilə bağlı onun cinayət məsuliyyətindən azad edilməklə, cinayət işini icraatına xitam verilməsini xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin cinayət və inzibati xətalara dair işlər üzrə kollegiyası cinayət işinin materiallırını araşdırıb, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək, apellyasiya şikayətinin təmin olunması barədə məhkum və onun müdafiəçisinin, apellyasiya şikayətinin təmin edilməməsi haqqında isə zərərçəkmiş şəxsin, onun nümayəndəsinin, həmçinin dövlət ittihamçısının çıxışını dinləyərək hesab edir ki, aşağıdakı əsaslara görə apellyasiya şikayəti təmin edilmədən, Bakı şəhəri, Nərimanov Rayon Məhkəməsinin 25 may 2010-cu il tarixli hökmü dəyişdirilmədən saxlanılmalıdır.

Belə ki, cinayət işinin materiallarından görünür ki, məhkum S.Abdullayev özünü elan edilmiş ittiham üzrə təqsirli bilməsədə, onun törətdiyi cinayət əməli zərərçəkmiş şəxsin, onun nümayəndəsinin, məhkəmə icraçılarının ibtidai istintaq və məhkəmədə verdikləri ifadələri və işin digər halları ilə sübuta yetirilmişdir.

Məhkəmə kollegiyası məhkum S.Abdullayevin apellyasiya şikayətinin dəlilləri ilə razılaşmır, onları əsassız hesab edərək rədd edir və bildirir ki, iş üzrə toplanmış sübutlara hüquqi qiymət verən birinci instansiya məhkəməsi işin faktiki hallarına uyğun olan qanuni və əsaslı nəticəyə gəlmiş və S.Abdullayevin əməlini Azərbaycan Respublikası CM-nin 306.2-ci maddəsi ilə düzgün tövsif etmişdir.

Bundan əlavə məhkəmə kollegiyası məhkum bəraət verilmədiyi hadla Azərbaycan Respublikası CM-nin 74-cü maddəsinə əsasən şəraitin dəyişməsi ilə bağlı icraata xitam verilərək məhkum S.Abdullayevin cinayət məsuliyyətindən azad olunması barədə apellyasiya şikayətinin dəlilləri ilə də razılaşmır və bildirir ki, belə bir əsas məhkəmənin qüvvədə olan qətnaməsi icra edildikdən sonra yarana bilər. Hazırda məhkəmənin qətnaməsi icra edilmədiyindən, şərait dəyişməmişdir. Ona görə də məhkumun barəsində Azərbaycan Respublikası CM-nin 74-cu maddəsi tətbiq oluna bilməz və bu hissədə də apellyasiya şikayəti rədd edilməlidir.

Məhkum S.Abdullayevə təyin edilmiş cəza məsələsinə gəldikdə isə məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsi bu məsələnin həlli zamanı cəza təyinetmənin ümumi prinsiplərini müəyyən edən Azərbaycan Respublikası CM-nin 58-ci maddəsinin tələblərinə əməl etməklə, törədilmiş cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcisini, onun məsuliyyətini ağırlaşdıran və yüngülləşdirən, həmçinin şəxsiyyətini xarakterizə edən halları və təyin ediləcək cəzanın onun islah olunmasına və ailəsinin həyat

şəraitinə təsirini nəzərə almış, onun əməlində cəzasını ağırlaşdıran halın olmamasını qeyd etmiş və əvvəllər məhkum edilməməsini cəzasını yüngülləşdirən hal kimi nəzərə alaraq ona, təqsirli bilindiyi maddənin sankisyasında nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasına alternativ cəzalardan daha yüngülünü təyin etmişdir.

Qeyd edilənləri nəzərə alaraq məhkəmə kollegiyası hesab edir ki, məhkəmənin hökmü qanuni və əsaslı olduğundan dəyişdirilmədən qüvvəsində saxlanılmalı, apellyasiya şikayəti isə əsassız olduğundan təmin edilməməlidir.

Bakı Apellyasiya Məhkəməsinin cinayət və inzibati xətalara dair işlər üzrə kollegiyası şərh olunanları və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2 və 398.1-ci maddələrini rəhbər tutaraq

**Q Ə R A R A   A L D I:**

Bakı şəhəri, Nərimanov Rayon Məhkəməsinin Abdullayev Səmyar Abdulla oğlu haqqındakı 25 may 2010-ci il tarixli hökmü dəyişdirilmədən, apellyasiya şikayəti təmin edilmədən saxlanılsın.

Qərar elan edildiyi andan qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası CPM-nin 410-cu madədsinin tələblərinə müvafiq olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya qaydasında şikayət və ya protest verilə bilər.